AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

**“DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ” KAFEDRASI**

**“İnzibati hüquq” fənni üzrə**

# M Ü H A Z İ R Ə

(Bakalavriat səviyyəsi üzrə qiyabi təhsilalanlar üçün)

## Mövzu № 13. “Dövlət idarəetməsində qanunçuluq və intizam”

**Vaxt: 2 saat**

**Tərtib etdi:** “DİO-nun inzibati fəaliyyəti” kafedrasının rəisi, polis polkovniki, h.ü.f.d., dosent Rafiq Nəcəfquliyev

Mühazirə kafedranın iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № “___”______________ 2017-ci il.

Dəyişiklik və əlavə edilib: _______________ 2018-ci il.

Əlavə edilib: _______________ 2019-cu il.

Dəyişiklik və əlavə edilib: _______________ 2020-ci il.

Əlavə edilib: _______________ 2021-ci il.

**Bakı – 2017**

## Mövzu № 13. Dövlət idarəetməsində qanunçuluq və intizam

**Plan:**

**Giriş**

1. Dövlət idarəetməsində qanunçuluğun və intizamın anlayışı, onların məzmunu.
2. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları, onların xarakteristikası.
3. DİO-nun (polisin) fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi üsulları.

**Nəticə**

**İstifadə və tövsiyə edilən mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq Yayın Evi-2016.
2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2015.
3. "Daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 29.06.2001-ci il tarixli Qanunu.
4. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2015.
5. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi". Bakı, 2016.
6. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Bakı, 2015.
7. "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
8. DİN-in 03 noyabr 2011-ci il tarixli 680 nömrəli Qərarı ilə təsdiq edilmiş "Törədilmiş və ya hazırlanan cinayət və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimat.
9. Azərbaycan Respublikası DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri: "Azərbaycan Respublikası daxili işlər orqanlarının İntizam Nizamnaməsinin təsdiq edilməsi barədə".
10. Dərslik. «Административное право» D.N. Baxrax, V.B. Rossinski, Y.N. Starilov. Moskva 2005.
11. Берлач А.И. Административное право Украины: Учеб. Пос., Университет "Украина", 2005., 472 с.
12. Dərslik. "İnzibati hüquq" Abdulıəli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008.
13. Dərs vəsaiti "İnzibati hüquq" ümumi hissə. Vaqif Abışov, Aleksandr İsmayılov, Rafiq Nəcəfquliyev. Bakı, MBM mətbəəsi, 2014.
14. Dərslik. İnzibati hüquq. R.Nəcəfquliyev. Bakı, 2018.
15. http://www.e-qanun.az
16. http://www.preslib.az.
17. http://www.yurist-online.com.

## Giriş

Qanunçuluq və intizam çox hüdudlu problemdir. Qanunçuluq və intizam demokratik cəmiyyətin mövcudluğunun və inkişafının vacib atributlarıdır. Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi problemi təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, cəmiyyətlərdə ictimai proseslərin effektiv idarə edilməsinə qanunçuluğun təmin edilməsi ilə nail olunur.

Dövlət idarəetməsinin təşkili prosesində qarşıya qoyulan vəzifələrin layiqli icrası dövlət qulluqçularının müəyyən davranış qaydalarına riayət etmələrini tələb edir.

Cəmiyyətdə intizam mövcud olan ictimai münasibətlərin möhkəmlənməsinə xidmət edir. Bu hüquqi təzahür insan davranışının nizama salınmasında aparıcı rola malikdir.

Bu günkü mühazirə mövzusi İnzibati hüquqda öz aktuallığı ilə seçilir. Mövzu üzrə üç sual müzakirə predmetini təşkil edəcəkdir. Mühazirənin birinci sualı üzrə dövlət idarəetməsində qanunçuluğun və intizamın anlayışı, onların məzmunu haqqında məlumatlar diqqətinizə təqdim olunacaqdır. İkinci sualda dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları, onların xarakteristikası haqqında nəzəri və təcrübi məlumatların sizlərə izah olunması planlaşdırılır. Mühazirənin planına uyğun olaraq üçüncü sual üzrə DİO-nun (polisin) fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi üsulları haqqında mövcud qanunvericiliyin tələbləri tərəfimizdən diqqətinizə təqdim ediləcəkdir.

**Sual 1.** Dövlət idarəetməsində qanunçuluğun və intizamın anlayışı, onların məzmunu

Hüquq ədəbiyyatında qanunçuluğun anlayışına dair bir neçə fərqli yanaşmalar mövcuddur. D.N.Baxraxın fikrincə, qanunçuluq - təşkil olunmuş cəmiyyətdə demokratiyanın mövcud olmasının və inkişafının atributlarındandır. O, vətəndaşların hüquq və azadlıqlarının realizəsi, demokratiyanın həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, dövlət aparatının elmi əsaslandırılmış quruluşunu və rasional fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Qanunçuluq dövlət mexanizminin bütün elementləri, vətəndaş cəmiyyəti institutları, əhali və təsisatlar üçün vacibdir.

S.V.Tixomirov qanunçuluğa belə anlayış vermişdir: "Dövlət idarəetməsində qanunçuluq - bütün icra hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri, eləcə də idarəetmə subyektlərinin tələblərinin istiqamətləndiyi şəxslər tərəfindən Konstitusiyaya və qanunlara dəqiq və birmənalı şəkildə əməl olunmasıdır. Qanunçuluq həm də idarəetmənin hər bir subyektinin ciddi olaraq öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərməsində ifadə olunur".

Yuxarıdakı anlayışların bir-birinə çox oxşar olmasına baxmayaraq, fərqli cəhətləri də mövcuddur. Zənnimizcə, D.N.Baxraxın verdiyi anlayış daha məqsədəuyğundur. Çünki müəllifin anlayışında nəinki bütün şəxslərin və orqanların qanunlara ciddi riayət etməsinin vacibliyi, habelə qanunçuluğun hansı əhəmiyyət daşıdığı da göstərilir.

Qanunçuluq prinsip kimi Azərbaycan Respublikasının bir sıra normativ hüquqi aktlarında əks olunmuşdur.

Qanunçuluq prinsipi nəinki İnzibati Xətalar Məcəlləsinin 6-cı maddəsində təsbit olunub, habelə Cinayət Məcəlləsinin 5-ci maddəsində də əks olunub. Demək olar ki, hər iki məcəllədə qanunçuluğun mahiyyəti eynidir, lakin onlar arasında fərqli xüsusiyyət törədilən əməlin ictimai təhlükəliliyi ilə əlaqədardır. var. Belə ki, cinayət əməli törədən şəxs Cinayət Məcəlləsi ilə, inzibati xəta törədən şəxs isə İnzibati Xətalar Məcəlləsi ilə məsuliyyətə cəlb olunur.

Qeyd edək ki, qanunçuluq prinsipi konstitusion prinsipdir. Dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, vəzifəli şəxslər, vətəndaşlar və onların birlikləri həmin prinsipə uyğun olaraq, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməyə borcludurlar.

Qanunçuluq cəmiyyət üçün zəruridir. Qanunçuluğa əməl etmək istər vətəndaş cəmiyyəti, istərsə də dövlət mexanizminin bütün elementləri üçün məcburidir.

Qanunçuluq dövlət idarəetməsində xüsusi əhəmiyyət kəsb edir. Bu aşağıdakı mühüm hallarla şərtlənir:

1. İdarəetmə dövlətin və yerli özünüidarə orqanlarının ən böyük fəaliyyət sahəsini əhatə edir. Onların iqtisadiyyata, sosial-mədəni və inzibati-siyasi quruculuğa rəhbərlik sahəsindəki çoxcəhətli fəaliyyəti burada həyata keçirilir.

Qanunçuluğa ən ciddi şəkildə əməl edilməsi idarəetmə sisteminin bütün vasitələrinin ahəngdar fəaliyyətinin, idarəetmə qarşısında duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinin ən mühüm şərtidir.

İdarəetmə subyektləri öz funksiya və səlahiyyətlərini reallaşdırarkən hüquq normalarının tətbiq olunma fəaliyyətini həyata keçirirlər. Bu fəaliyyət hüququn tətbiqi aktları şəklində idarəetmə qərarları işlənib hazırlanması və qəbul edilməsi ilə müşayiət olunur. Hüquq normalarının ümumi göstərişlərini konkretləşdirən bu aktlar müxtəlif hüquq sahələrində konkret hüquqi münasibətlərinin yaranmasında dəyişilməsinə və xitamına səbəb olur.

Hüquq tətbiqi aktlarının köməyi ilə idarəetmə obyektlərinə təşkiledici təsir göstəri-

lir, idarəetmə sahəsində fərdi-konkret işlər yerinə yetirilir. Hüquq tətbiqi aktları hüquq normalarının ümumi tədbirləri əsasında qəbul edildiyindən həmin aktlarda əks edilmiş hüquqi göstərişlərə uyğun gəlməlidir. Başqa sözlə, idarəetmə subyektlərinin qanun qüvvəli fəaliyyəti qanunçuluq prinsipinə uyğun olaraq həyata keçirilməlidir.

2. İdarəetmənin çoxsaylı subyektlər həyata keçirirlər. Vətəndaşlar müxtəlif təşkilatlara əsasən məhz onlara müraciət edirlər.

Vətəndaşların gündəlik həyatı və təşkilatların fəaliyyəti ilə bağlı məsələlərin düzgün, obyektiv və operativ həlli xeyli dərəcədə həmin subyektlərin qanunlara və qanun aktlarına ciddi əməl etməsi, onlara həvalə olunmuş vəzifələrin dönmədən yerinə yetirilməsi əsasında qurulmuş dəqiq işindən asılıdır.

Buna görə də icra hakimiyyəti orqanları tabeliklərindəki təşkilatların fəaliyyətində qanunlara və qanun qüvvəli aktlarına əməl olunmasını öz səlahiyyətləri daxilində əməl etməyə dövlət intizamını möhkəmləndirmək üçün tədbirlər görməyə borcludur.

3. İdarəetmə orqanları ictimai həyatın geniş və çoxcəhətli sahələrini əhatə edən hüquq yaratma fəaliyyətini həyata keçirirlər.

İdarəetmə orqanları tərəfindən normativ aktlar qəbul edilməsi qanunçuluq prinsipinə əsaslanır, yəni həmin aktlar qanuna uyğun olmalı, onlar əsas götürülməlidir. Normativ aktların qəbul edilməsi zamanı qanunçuluğa əməl olunmasının əhəmiyyəti getdikcə daha da artmaqdadır. Bu onunla əlaqədardır ki, həmin aktlarda əks olunmuş göstərişlər çox zaman vətəndaşların müəssisə, idarə və təşkilatların hüquq və mənafelərinə toxunur.

Hüquq yaratma fəaliyyətinin qanunçuluq çərçivəsində həyata keçirilməsi müvafiq hüquqların təminatını gücləndirir.

4. İdarəetmə orqanlarına inzibati məcburetmə tədbirlərinin tətbiqi sahəsində geniş səlahiyyətlər verilmişdir. Onlar inzibati yurisdiksiyanı həyata keçirərək, mübahisələri müstəqil surətdə yoluna qoyur, dövlət məcburetmə tədbirləri tətbiq etməklə hüquqpozmaqla təsir göstərirlər.

Beləliklə, qanunçuluq idarəetmə fəaliyyətinin müxtəlif sahələri əhatə edir. Hüquq normalarının həm idarə edənlər, həm də idarə olunanlar tərəfindən eyni cür başa düşülməsinə və tətbiq edilməsinə təminat yaradır. O, idarəetmənin səmərəliyinin obyektiv şərtidir.

Qanunçuluq aşağıdakı əsas əlamətlər ilə xarakterizə olunur:

Birincisi, qanunçuluğun ən mühüm cəhəti onun ümumiliyidir. Belə ki, hüquq normalarına hər bir şəxs eyni səviyyədə riayət etməlidir. Dövlətin göstərişlərinin icrası məcburidir, öz növbəsində isə dövlət şəxsiyyətin qanuni hüquqlarının təminatçısıdır. Dövlət vətəndaş qarşısında, vətəndaş isə dövlət qarşısında məsuliyyət daşıyır.

Ümumilik qanunçuluğun zəruri əlaməti kimi həm dövlətə, həm də onun vətəndaşlarına şamil olunur. Hüquqi göstərişlərin yerinə yetirilməsinin təmini dövlətin və onun orqanlarının vəzifəsidir. Çünki dövlət zəruri təşkilati, maddi və məcburetmə vasitələrinə malikdir. Adlan çəkilən təzahürlərdən istifadə etməklə o vətəndaşların hüquq və qanuni mənafelərini təmin etməlidir.

İkincisi, qanunçuluq hüquqla, hüquq normaları ilə sıx bağlıdır. Çünki ölkədə qanunçuluq rejiminin vəziyyətini dövlətin qanunlarını, ictimai tərəqqinin inkişafının obyektiv tələblərini nə dərəcədə əks etdirməsinə görə qiymətləndirmək olar. Əgər dövlətin qəbul etdiyi hüquq normaları yalnız ayrı-ayrı şəxslərin və ya müəyyən sosial qrupların mənafelərini əks etdirir və qoruyursa, bu zaman ölkənin bütün əhalisinin ümumi və fərdi maraqlarını nəzərə almırsa - qanunçuluqdan söhbət gedə bilməz. Digər tərəfdən əgər hüquq normaları əhalinin müxtəlif təbəqələrinin mənafelərini yalnız formal olaraq əks etdirsə (onlara təminat vermirsə), bu zaman qanunçuluq simvolik xarakter daşıyır.

Qanunçuluğun normativ əsasını ictimai münasibətlərin bütün iştirakçılarının ümumi və fərdi maraqlarını eyni dərəcədə əks etdirən hüquqi qanunlar təşkil edir.

Beləliklə, qanunçuluq rejimi bir-birinə bağlı olan iki amili nəzərdə tutur:

- ictimai tərəqqinin tələblərinə cavab verən mükəmməl, dəqiq işlənib hazırlanmış qanunvericiliyin mövcudluğu;
- normativ-hüquqi aktların tələblərinin dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar və müxtəlif subyektlər tərəfindən tam və qeyri-şərtsiz icrası.

Qanunçuluğun əsas tələbləri. "Qanunçuluğun tələbləri" terminine ədəbiyyatlarda kifayət qədər rast gəlinir. Onun məzmununa cəmiyyətin hüquqi həyatının prinsipial müddəaları daxildir. Bu müddəalarsız real qanunçuluq mümkün deyil. Qanunçuluğun tələbləri əsas etibarilə hüququn prinsipləri ilə üst-üstə düşür, belə ki, onların realizəsi ictimai münasibətlərin qanunçuluq rejimini yaradır.

Qanunçuluğun tələbləri hüququn prinsiplərinin realizə vasitəsidir və onlarla yalnız ifadə baxımından eynidir. Qanunçuluğun tələbləri hüquqi ümumi prinsiplərini həyata keçirmək üçün hüquqi alətdir. Başqa sözlə desək, qanunçuluğun prinsipləri öz əkslərini qanunçuluğun tələblərində tapırlar.

Qanunçuluğun əsas tələblərinə aid edilir:

1. Qanunun başqa hüquqi aktlara münasibətdə aliliyi.

Hüquqi dövlətdə qanun ən yüksək hüquqi qüvvəyə malikdir. Klassik feodal Avropasında belə ifadə var idi: "Şah qanundur, qanun şah deyil". Lakin müasir demokratiya prinsiplərindən irəli gələrək Azərbaycan Respublikası dünyanın hər bir sivil ölkəsi kimi tamamilə əks mövqedən çıxış edir. Daha dəqiq desək, ölkəmizdə qanun ictimai münasibətlərin əsas tənzimləyicisidir. Qanunqüvvəli aktlar isə hər hansı ictimai münasibətlərin qanunla tənzimləndiyi halda fəaliyyət göstərir. Qanun qüvvəli aktlar mütləq qanuna müvafiq və qanun əsasında verilməlidir. Qeyd edək ki, dövlət idarəetməsində qəbul edilən idarəetmə aktları qanunqüvvəli xarakterə malik olur. Adı çəkilən aktlar qanun əsasında və onu icra edilməsi məqsədi ilə qəbul edilir. Məsələn: Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlara uyğun olmalı və onların həyata keçirilməsinə xidmət edir.

2. Qanunların qüvvədə olduğu bütün ərazidə anlaşılması və tətbiqinin vahidliyi.

Qanunlar zaman və məkan baxımından bütün subyektlərə eyni tələblərlə çıxış edir. Federativ dövlətlərdə qanunlar federasiyaya daxil olan bütün subyektlərin ərazisində eyni qüvvəyə malik olur.

Qanunların mahiyyətinin və konkret məzmunun eyni cür dərk edilməsi səlahiyyətli orqanları və vəzifəli şəxslərin hüququn tətbiqi sahəsindəki fəaliyyətlərində qanunçuluğu təmin edir. Bu fəaliyyət qanunun həqiqi mənasına uyğun olur və onun tənzimləmə funksiyalarını həyata keçirir.

3. Qanun və məhkəmə qarşısında hamının bərabərliyi prinsipi.

Cəmiyyətdə səmərəli qanunçuluq rejimi yalnız bütün insanların qanun və məhkəmə qarşısında bərabərliyi şəraitində mümkündür. Bir tərəfdən, inzibati hüququn subyektləri üzərilərinə düşən vəzifələri tam həcmdə yerinə yetirməyə, qanunun tələblərinə tabe olmağa borcludurlar. Digər tərəfdən, dövlət onların qanuni hüquq və mənafelərinin həyata keçirilməsi üçün bütün lazımi şəraiti yaratmalıdır.

4. İnsanın öz hüquq və azadlıqlarını həyata keçirilməsi başqa şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır. Bu prinsip xüsusi əhəmiyyət kəsb edir. Bir insanın azadlığı başqa bir insanın azadlığını məhdudlaşdırmaq hesabına olmamalıdır. Qanun dövlətin bir qrup vətəndaşın hüquqlarının başqa bir qrup vətəndaşın hüquqları hesabına genişləndirilməsinə yol vermir.

5. Qanunçuluq və məqsədəuyğunluğun qarşı-qarşıya qoyulmasının yol verilməzliyi.

Hüquqi qanunlar özləri ən yüksək ictimai məqsədəuyğunluq keyfiyyətinə malikdir. Onlarda insanların istər ictimai, istərsə də fərdi maraqlan maksimum şəkildə əks olunur. Qanunun tələblərini pozarkən bəzi vəzifəli şəxslər və vətəndaşlar öz hüquqazidd hərəkətlərinə yerli və ya fərdi məqsədəuyğunluqla bəraət qazandırırlar. Onlar təsdiq edirlər ki, bu konkret şəraitdə qanuna riayət edilməsi məqsədəuyğun deyildir və onu öz subyektiv, qeyri-qanuni bu vəziyyət üçün xeyli və lazımlı hesab etdikləri ilə əvəz edirlər. Lakin bu hallar yolverilməzdir.

Beləliklə, hüquqi dövlətdə məqsədəuyğunluq qanun əsasında və qanun icrası ilə həyata keçirilir. Hər bir halda qanuna riayət olunmalıdır, ancaq qanun çərçivəsində bu konkret hal üçün məqsədəuyğun sayıla bilən tədbir görülməlidir. Qanun ali məqsədəuyğunluğa malikdir, ona görə də insanların yerini və fərdi maraqlarının bütün rəngarəngliyini nəzərə almağa imkan verir.

6. Hüquq pozuntularının qarşısının alınması və onlarla səmərəli mübarizə prinsipi.

Hüquqi dövlət hüquq pozuntularının qarşısını almaq üçün lazımi maddi, siyasi, sosial və başqa amilləri yaradır. Yaxşı maddi həyat şərait, əhalinin sosial müdafiəsi, ölkədə siyasi sabitlik, ədalətli hüquq mühafizə qanunlarının olması qanunçuluq rejiminin real əsasını təşkil edir.

Dövlət idarəetməsində olan hüquq pozuntuları əsasən inzibati qaydada baxılır.

Beləliklə, qanunçuluğun tələbləri birlikdə və qarşılıqlı əlaqədə ictimai həyatın sabitliyini və ahəngdarlığını təmin edir, mülki cəmiyyətin inkişafına təkan verir.

Qanunçuluq qanunların həyata keçirilməsi prosesidir.

Dövlət idarəetməsində qanunçuluq rejimi elə vəziyyətdir ki, inzibati hüquq münasibətləri iştirakçıları öz vəzifə və hüquqlarını azad realizə edirlər.

İdarəetmənin effektivliyi yalnız qanunçuluğun tələblərinə riayət etmədən deyil, o, həm də idarəetmə subyektlərinin intizamından asılıdır.

İdarəetmədə intizam təkcə idarəetmənin müxtəlif sahələrində və bölmələrində bilavasitə fəaliyyət göstərən icra hakimiyyəti orqanlarının qulluqçular tərəfindən qanunların və yuxarı təbəqəli idarəetmə subyektlərinin digər normativ aktlarının icrasını nəzərdə tutmur.

İntizam dövlət aparatının bütün işçiləri, habelə bilavasitə maddi istehsal və əhaliyə sosial-mədəni xidmət sahələrində çalışan şəxslər tərəfindən qanunların yuxarı orqanlarının digər normativ aktlarına dönmədən icra edilməsini nəzərdə tutur.

İntizam idarəetmə fəaliyyətinin bütün iştirakçılarının hərəkətlərinin yüksək dərəcədə mütəşəkkillik və ahəngdarlıq əsasında formalaşdırılmasında mühüm rol oynayır.

İdarəetmənin mühüm amili olan intizam qanunlarda və qanunqüvvəli aktlarda təsbit edilmiş hüquq normalarının tələblərinin təsiri altında formalaşır, təkmilləşir. Bu o deməkdir ki, qanunçuluq və intizam bir tərəfdən müstəqil kateqoriyalardır, digər tərəfdən bunlar qırılmaz əlaqədə olmaqla, bir-birinə qarşılıqlı təsir göstərir. Bunların qarşılıqlı əlaqəsi ondan irəli gəlir ki, qanunçuluq intizamın əsası, özəyidir. Çünki intizamın tələblərindən biri qanuna və digər normativ aktlara əməl edilməsidir. Qanunçuluq intizamın qorunması vasitəsidir, çünki intizamın əsas tələbləri hüquqi aktlarda etdirilmiş normalar şəklində ifadə olunur. Deməli, qanunçuluğun rolu və vəzifəsi intizamı müdafiə etməkdən, möhkəmləndirməkdən ibarətdir.

Qanunçuluğun və intizamın əlaqəsi, həmçinin dövlət tərəfindən qanunçuluğu təmin etmək və möhkəmləndirmək üçün istifadə olunan hüquqi vasitələr intizamı möhkəmlətmək vasitələri olmasında da təzahür edir. Öz növbəsində intizama əməl edilmədən cid-

di qanunçuluq da mümkün deyildir.

Dövlət intizamı - dövlətin vəzifə və funksiyalarının təcrübi cəhətdən həyata keçirilməsində dövlət təşkilatları, işçiləri və qulluqçuları, ictimai təşkilatlar və vətəndaşlar tərəfindən dövlət tərəfindən dövlət tərəfindən müəyyən edilmiş qayda və konkret göstərişlərə riayət edilməsindən, onların dəqiq və dönmədən icra edilməsindən ibarətdir.

Dövlət intizamının xüsusiyyəti ondan ibarətdir ki, dövlət idarəetmə sahəsində yaranan ictimai münasibətlərin iştirakçılarından heç olmazsa biri hansısa bir orqan və yaxud vəzifəli şəxs qismində dövlət çıxış etməlidir.

Hərbi intizam - hüququn əsas prinsiplərinə əsaslanan dövlət intizamının xüsusi növüdür. V.M. Korelski haqlı olaraq qeyd edir ki, Silahlı Qüvvələr - xüsusi dövlət təşkilatıdır, bu sahədə yaranan münasibətlər digər münasibətlərdən kəskin surətdə fərqlənir.

Hərbi intizam - hərbi münasibətlərin tənzimləməsi sahəsindəki hüquq normalarının dəqiq icrası nəticəsində formalaşan münasibətlər sistemidir.

Qeyd etmək vacibdir ki, hərbi intizam hərbi nizamnamələr, əsasnamələr və hərbi sahəsində qəbul olunmuş digər normativ aktlarla nizama salınır.

Hərbi intizamı daxili və xarici göstəricilər səciyyələndirir.

I. Xarici göstəricilər:

- qanunlara ciddi riayət etmə;
- komandirlərin və rəislərin əmr, göstərişlərinə ciddi əməl etmə;
- silaha, hərbi texnikaya, rabitə vasitələrinə və digər hərbi əmlaka yüksək münasibət bəsləmək;
- nümunəvi xarici görkəm.

II. Daxili göstəricilər:

- hərbi intizamın zəruriliyində və məqsədəuyğunluğunda əminlik;
- hərbi fəaliyyəti nizamlayan qanunların və digər normativ aktların dərk edilməsi;
- hərbi intizamdan irəli gələn tələblərə uyğun özünüidarəetmə qabiliyyəti;
- intizamlı olmağın adət halını alması.

Nəzərə almaq lazımdır ki, hərbi intizam əsasında daxili işlər, təhlükəsizlik, gömrük və digər strukturlarda intizam təşkil edilir.

Suala yekun olaraq qeyd edirik ki, qanunçuluğun ən mühüm cəhəti onun ümumiliyidir. Belə ki, hüquq normalarına hər bir şəxs eyni səviyyədə riayət etməlidir. Dövlətin göstərişlərinin icrası məcburidir, öz növbəsində isə dövlət şəxsiyyətin qanuni hüquqlarının təminatçısıdır. Dövlət vətəndaş qarşısında, vətəndaş isə dövlət qarşısında məsuliyyət daşıyır. Qanunçuluğun tələbləri birlikdə və qarşılıqlı əlaqədə ictimai həyatın sabitliyini və ahəngdarlığını təmin edir, eyni zamanda cəmiyyətin inkişafına təkan verir.

**Sual 2.** Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları, onların xarakteristikası

İdarəetmədə qanunçuluğun və intizamın təmin edilməsi müvafiq dövlət təsisatlarının aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

✓ icra hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətində qüvvədə olan qanunlar və qanun qüvvəli aktlar ilə təsbit edilmiş tələblərin və göstərişlərin pozulmasına yol verməməyi;

✓ pozuntuların vaxtında aşkara çıxarılması, qarşısının alınması və onların aradan qaldırılması;

✓ pozuntulara imkan verən səbəbləri və şəraiti aradan qaldırmağa yönəldilən tədbirlər işlənib hazırlanması və həyata keçirilməsi;

✓ qanunçuluq və intizam pozulduğu təqdirdə məsuliyyətin labüdlüyü şəraitinin yaradılması.

Qanunçuluq və intizamın təmin edilməsinə təşkilati-hüquqi vasitələrin köməyi ilə nail olunur. Həmin vasitələr məcmu halda qanunçuluğu və intizamı təmin etmək üsullarını, habelə bu üsullar sistemini əhatə edir. Bu sistemə fəaliyyəti qanunçuluğun və intizamın təmin edilməsi ilə müxtəlif dərəcədə bağlı olan çoxsaylı dövlət orqanları daxildir.

Qanunçuluğu və intizamı təmin edən orqanların bəziləri üçün bu funksiya sahəyə, kompleksə rəhbərlik, bunların idarəetmə sahəsindəki çoxsaylı funksiyalarından yalnız biridir. Belə halda qanunçuluğu və intizamı təmin etmək sahəsindəki fəaliyyət onların bütövlükdə qanunçuluq və intizam təsisatı ilə bağlı olmayan əsas fəaliyyəti hüdudlarında həyata keçirilir. Bununla yanaşı dövlət tərəfindən elə orqanlar da yaradılır ki, onların fəaliyyəti ictimai həyatda, o cümlədən idarəetmə sahəsində qanunçuluğun və intizamın təmin edilməsinə yönəldilmişdir. Bu orqanlara aiddir:

- məhkəmələr;
- prokurorluq;
- dövlət inspeksiyaları;
- dövlət nəzarət xidmətləri.

Qanunçuluq və intizamın təmin edilməsi məsələləri ilə məşğul olan bütün orqanlar müvafiq hüquqi hakimiyyət səlahiyyətlərinə malikdir və onların fəaliyyətinə dövlət hüquqi xarakter verilir. Belə fəaliyyət qanunçuluğun və intizamın təmin edilməsi üsulu kimi başa düşülür. Bu fəaliyyət müxtəlif dövlət hakimiyyəti orqanları, habelə yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir.

Qanunçuluğun təmin edilməsi fəaliyyəti müxtəlif hüquqi və təşkilati fəaliyyət forma və metodlarla həyata keçirilir. Bu vasitələrə qanunçuluğun təmin edilməsi üsulları kimi qiymət vermək olar. Bu üsullara aiddir:

• yoxlama;
• nəzarət;
• şikayət vermə.

I. Yoxlama üsulu. Dövlət idarəetməsində qanunçuluğun və intizamın möhkəmləndirilməsi üçün idarəetməni effektiv həyata keçirmək üçün yoxlama üsulundan geniş istifadə olunur.

Yoxlama - bütün dövlət orqanları tərəfindən onların qarşısında qoyulmuş məqsədlərə nail olmaq, vəzifələri dəqiqliklə icrası üçün mütəmadi olaraq həyata keçirilir. Əsasən yoxlamalar dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirildikdə dövlət yoxlamaları adlanır.

İcra hakimiyyəti orqanlarına nəzər yetirsək belə bir vəziyyəti müşahidə edə bilərik.

Qeyd edək ki, icra hakimiyyəti orqanları tabeçilik prinsipinə əsaslanaraq fəaliyyət göstərirlər. Yuxarı orqan nisbətən aşağı orqanının fəaliyyətini yoxlayır. Məsələn: Daxili işlər orqanları sistemində rayon (şəhər) polis idarələri tabeçiliyindəki şöbə və bölmələrdə yoxlamanı həyata keçirir.

Dövlət yoxlaması məzmunu və məqsədinə görə iki qrupa bölünür:

- ümumi yoxlama - tabeliyində olan subyektin bütün fəaliyyət istiqamətlərini əhatə edir.

- xüsusi yoxlama - tabeliyində olan subyektin konkret fəaliyyət istiqaməti üzrə yoxlama həyata keçirilir.

Həyata keçirilmə istiqamətinə görə isə yoxlamanın iki növü fərqləndirilir:

1. Daxili yoxlama - dövlət orqanının öz səlahiyyəti hesabına həyata keçirilən yoxlamadır. Məsələn: Daxili İşlər Nazirliyi tərəfindən baş idarə, idarə, şöbə, bölmə və digər hissələrdə keçirilən yoxlamalar.

2. Xarici yoxlama - təşkilatın özünün müəyyən orqanı deyil, digər səlahiyyətli orqan tərəfindən həyata keçirilən yoxlamadır. Məsələn: Maliyyə Nazirliyi tərəfindən DİN-in aidiyyəti qurumlarında maliyyə resurslarının xərclənməsi üzrə yoxlamalar.

II. Nəzarət üsulu. Nəzarət geniş kateqoriyadır. Nəzarətin mahiyyəti və təyinatı aşağıdakıları əhatə edir:

✓ müvafiq nəzarət obyektinin fəaliyyəti üzərində müşahidə aparılması;

✓ həmin obyektdə qanunçuluğun və intizamın vəziyyəti barədə obyektiv və düzgün məlumat əldə edilməsi;

✓ qanunçuluğun və intizamın pozulması halların qarşısının alınması və bunların aradan qaldırılması;

✓ hüquqpozmalara imkan yaradan səbəblərin və şəraitin aşkar edilməsi;

✓ qanunçuluğun və intizamın pozulmasında günahkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində tədbirlər görülməsi.

Nəzarət subyektləri nəzarət vasitəsilə icra hakimiyyəti orqanları fəaliyyətinin vəzifəli şəxslərinin hərəkətlərinin hüquqi normaların müddəalarına uyğun gəlib-gəlmədiyini aydınlaşdırır. Bununla birlikdə vətəndaşların və onların ictimai birliklərinin idarəetmə sahəsinə “bağlı” hərəkətlərinə nəzarət edilir.

Nəzarət fəaliyyəti bu fəaliyyəti həyata keçirən subyektlərdən asılı olaraq iki növə bölünür:

Birinci növ nəzarət idarəetmə sahəsində qanunlara əməl edilməsi üzərində nəzarət üzrə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlıdır.

Nəzarətin digər növü inzibati nəzarətdir. Onun mahiyyəti müvafiq səlahiyyət verilmiş dövlət orqanları və vəzifəli şəxslər tərəfindən idarəetmə sahəsində qüvvədə olan müxtəlif xüsusi normaların, qanunlarda və qanunqüvvəli aktlarında təsbit edilmiş ümumi məcburi icrası üzərində müşahidə aparılmasından ibarətdir.

Nəzarətin ən səciyyəvi cəhətləri aşağıdakılardır:

a) həmin nəzarət orqanları öz funksiyalarını və səlahiyyətlərini təşkilati cəhətdən onlara tabe olmayan obyektlərə münasibətdə, idarə nəzarəti orqanları isə əsasən təşkilati cəhətdən onlara tabe olmayan obyektlərə münasibətdə, idarə nəzarəti orqanları isə əsasən təşkilati cəhətdən onlara tabe olan və bəzi hallarda tabeliklərində olmayan obyektlərə münasibətdə həyata keçirir;

b) idarə nəzarəti prosesində təqsirkar şəxslərə qarşı intizam təsiri tədbirləri tətbiq edilə bilər, inzibati nəzarət prosesində isə fiziki və hüquqi şəxslərə qarşı inzibati təsir tədbirləri tətbiq edilir;

c) hazırda qüvvədə olan qanunvericiliyə əsasən idarə nəzarəti orqanları nəzarətin ob-

yektivliyinin müxtəlif tərəflərini yoxlamaqla məşğul olur; inzibati nəzarət orqanları isə onların nəzarəti altında olan obyektlərdə xüsusi qaydalara əməl edilməsi vəziyyətini yoxlayır.

İdarə nəzarətinin həyata keçirilməsi mərhələləri üzrə 3 növü fərqləndirilir:

- qabaqlayıcı;
- cari;
- sonrakı.

Qabaqlayıcı idarə nəzarəti pozuntuların qarşısını almaq və onların profilaktikası məqsədinə xidmət edir.

Cari idarə nəzarətinin məqsədi ilə qanunçuluğun və intizamın vəziyyətini aydınlaşdırmaqdan, nəzarət obyektləri hərəkətinin düzgünlüyünü müəyyənləşdirməkdən ibarətdir. Sonrakı idarə nəzarəti nəzarət orqanlarının müvafiq qərarlarının göstərişlərinin real icrası vəziyyətini yoxlamaq məqsədilə həyata keçirilir. İdarə nəzarətini həyata keçirən subyektləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

▪ Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilən nəzarət;
▪ qanunvericilik hakimiyyəti orqanları tərəfindən həyata keçirilən nəzarət;
▪ icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən nəzarət;
▪ məhkəmə orqanları tərəfindən həyata keçirilən nəzarət;
▪ prokurorluq orqanları tərəfindən həyata keçirilən nəzarət.

Azərbaycan Respublikası Prezidenti tərəfindən keçirilən nəzarət. Qanunçuluğun və intizamın təmin edilməsində Azərbaycan Respublikası Konstitusiyasının və vətəndaşın hüquq və azadlıqlarının qarantı olan Azərbaycan Respublikasının Prezidentinin xüsusi rolu vardır.

Azərbaycan Respublikası Prezidentinin icra hakimiyyəti sahəsindəki nəzarət səlahiyyətləri dövlətin başçısı, Azərbaycan Respublikası Konstitusiyasının, insan və vətəndaşın hüquq və azadlıqlarının təminatçısı olmaq etibarilə onun Konstitusiya statusu ilə şərtlənmişdir. Bu nəzarət Azərbaycan Respublikası Prezidentinin konstitusiya səlahiyyətlərinə daxil edilir. İdarəetmə sahəsində Prezidentin nəzarəti əsasən iki formada həyata keçirilir:

- Azərbaycan Respublikası Prezidentinin bilavasitə nə-zarəti;
- Azərbaycan Respublikası Prezidentinin müvafiq strukturları vasitəsilə nəzarəti.

Azərbaycan Respublikası Prezidentinin bilavasitə nəzarəti dövlət hakimiyyəti orqanları səviyyəsində kadrların seçilməsi və yerləşdirilməsi sahəsində həyata keçirilir. Məsələn: Milli Məclisin razılığı ilə Baş naziri və Baş Prokuroru vəzifəyə təyin edir və vəzifədən azad edir.

Qeyd edilməsi vacibdir ki, Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyinetmə məsələlərini həll edərkən müvafiq vəzifələrə namizədlər seçilməsini həyata keçirən vəzifəli şəxslərin də fəaliyyətinə nəzarət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsində Prezidentin səlahiyyətləri təsbit olunmuşdur. Bütün bu səlahiyyətlər Prezidentin müxtəlif məsələlərin müzakirəsində iştirak etməsinə, öz təkliflərini irəli sürməsinə, həm də dövlət həyatının və ictimai həyatın ən mühüm məsələləri üzrə hökumətin və digər hakimiyyət orqanları tərəfindən qəbul olunan müvafiq qərarların düzgünlüyünə, məqsədəuyğunluğuna və zəruriliyinə bilavasitə nəzarət etməsinə imkan yaradır.

Azərbaycan Respublikası Prezidenti tərəfindən nəzarət həyata keçirilərkən onun Administrasiyası mühüm rola malikdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının mühüm vəzifələri sırasına icra hakimiyyəti orqanlarının fəaliyyəti üzərində aidiyyəti nəzarətinin təmin edilməsi aid edilir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyanın struktur bölmələri öz

funksiyalarını və səlahiyyətlərini bilavasitə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən nəzarət yoxlamaları planlarına uyğun olaraq həyata keçirir. Yoxlamalar həmçinin, Azərbaycan Respublikası Prezidentinin və onun Administrasiyasının rəhbərinin ayrı-ayrı tapşırıqları əsasında da həyata keçirilə bilər.

Prezidentin Administrasiyası öz funksiya və səlahiyyətlərini həyata keçirərkən qanunverici hakimiyyəti, icra və məhkəmə hakimiyyəti orqanları, prokurorluq və digər orqanlar və təşkilatlarla sıx qarşılıqlı fəaliyyət göstərir.

Qanunvericilik hakimiyyəti orqanlarının nəzarəti - qanunverici orqanın nəzarət səlahiyyətləri kimi Azərbaycan Respublikası Konstitusiyası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında, Milli Məclisin reqlamentində və müvafiq aktlarında təsbit edilmişdir. Qanunverici hakimiyyət orqanının nəzarəti müvafiq surətdə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası səviyyəsində həyata keçirilir. Qanunverici hakimiyyət orqanının nəzarəti hakimiyyətin hər üç qolu üzrə orqanların, o cümlədən icra hakimiyyəti orqanlarının müstəqilliyi haqqında Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əməl edilməklə müəyyənləşdirilir.

Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildir. Azərbaycan Respublikası Konstitusiya və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikası Milli Məclisinin və icra hakimiyyəti orqanlarının nəzarət səlahiyyətlərinin həcmcə müxtəlif olduğunu sübut edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

Nümayəndəli orqan icra hakimiyyəti orqanları ilə fəaliyyəti qurmaq üçün daimi komitələr yaradır. Həmin komitələr öz səlahiyyətləri daxilində nəzarət funksiyalarını həyata keçirirlər.

Deputatlar Nazirlər Kabinetinə, nazirlərə, digər orqanların rəhbərlərinə müəyyən məsələlərlə bağlı deputat sorğusu göndərmək hüququna malikdirlər.

İcra hakimiyyəti orqanların nəzarəti icra hakimiyyəti orqanların nəzarəti onlara tapşırılmış iş sahələrində tabeliklərindəki orqanlar, müəssisə, idarə, təşkilatlar sistemində təsərrüfat, sosial-mədəni və inzibati-siyasi quruculuğa rəhbərlikdə qanunçuluğa intizamı təmin etmək məqsədini daşıyır.

İcra hakimiyyəti orqanların nəzarətini aşağıdakı növlərə bölmək olar:

- ümumi nəzarət;
- idarə nəzarəti;

1. Ümumi nəzarət obyektləri fəaliyyətinə dair məsələlərin tam bir kompleksinin təhqiq edilməsini nəzərdə tutur. Bu nəzarətin həyata keçirilməsi ümumi səlahiyyətli icra hakimiyyəti orqanlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin fəaliyyəti ilə bağlıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tabeliyindəki mərkəzi icra hakimiyyəti orqanlarının işini əlaqələndirir və istiqamətləndirir, nəzarət qaydasında öz iclaslarında onların rəhbərlərinin başçılıq etdikləri sahələrdə işlərin vəziyyəti barədə hesabat məruzələrini dinləyir.

Azərbaycan Respublikası Nazirlər Kabineti öz səlahiyyətləri çərçivəsində nəinki

təkcə mərkəzi icra hakimiyyəti orqanları, habelə Naxçıvan Muxtar Respublikası və yerli icra hakimiyyəti orqanları tərəfindən qanunlara, digər normativ aktlara əməl edilməsinə nəzarəti həyata keçirir.

2. İdarə nəzarəti sahə səlahiyyətli orqanlar və bir sıra sahələr arası səlahiyyətli orqanlar tərəfindən onların tabeliyindəki obyektlərə münasibətdə həyata keçirilir. Bu nəzarət həmin orqanların öz səlahiyyətləri daxilində tabelikdəki aşağı orqanlar, habelə müəssisə, idarə və təşkilatlar tərəfindən qanunlara, qanun aktlarına və öz qərarlarına əməl olunması, bunların icrası vəziyyətini yoxlamalarında ifadəsini tapır.

Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında idarə nəzarəti müvafiq nazirliklər, baş idarələr, idarələr, sahə və sahələr arası səlahiyyətli digər orqanlar tərəfindən həyata keçirilir.

Məhkəmə hakimiyyəti orqanları tərəfindən nəzarət. Məhkəmə orqanları sisteminin əsas funksiyası ədalət mühakiməsi vəzifələrini reallaşdırmaqdan ibarətdir. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərək vətəndaşların, idarə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, dövlət və ictimai mənafelərinin, dövlət və ictimai mənafelərinin qorunmasını təmin edir, bununla da qanunçuluğun möhkəmləndirilməsinə köməklik göstərir.

Ədalət mühakiməsi icraatı məhkəmələrin əsas funksiyasının olmasına baxmayaraq, onların yeganə funksiyası deyildir. Onlar məhkəmə nəzarəti funksiyasını həyata keçirirlər.

İdarəetmədə qanunçuluğu təmin etmək vasitəsi olmaq etibarilə məhkəmə nəzarətinin əsas məzmunu icra hakimiyyəti orqanlarının, onların vəzifəli şəxslərinin fəaliyyət və qərarlarının hüquqi cəhətdən qiymətləndirilməsi, qanunçuluğun, vətəndaşların, idarə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin pozulması hallarının belə pozuntuları doğuran səbəb və şəraitin aşkar edilməsi, pozulmuş hüquqların və qanuni mənafelərin bərpası üçün tədbirlər görülməsi, günahkar şəxslərin cinayətə cəlb edilməsi kimi məsələləri əhatə edir.

Məhkəmə nəzarətinin subyektləri isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi ixtisaslaşdırılmış məhkəmələrdir.

İdarəetmədə qanunçuluğun təmin edilməsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin mühüm rolu vardır. Onun hüquqi statusu Azərbaycan Respublikası Konstitusiyası ilə və “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi haqqında” Qanun ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi konstitusiya nəzarəti üzrə məhkəmə orqanı olmaqla öz səlahiyyəti daxilində yalnız hüquqi məsələləri həll edir. Bu dövlət hakimiyyət orqanında qanunların Azərbaycan Respublikası Konstitusiyasına müvafıqliyi barədə işlərə də baxılır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi öz səlahiyyəti çərçivəsində işləri həll edərkən Azərbaycan Respublikasının bütün ərazisində bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, idarə və təşkilatlar, vəzifəli şəxslər, vətəndaşlar və onların birlikləri üçün icrası məcburi olan qərarlar qəbul etməklə öz konstitusiya vəzifəsini Azərbaycan Respublikasında qanunçuluğu təmin etmək vəzifəsini yerinə yetirir.

Məhkəmələr vətəndaşların şikayətlərinə baxılması və həmin şikayətlər üzrə qərarlar qəbul edilməsi prosesində müvafiq icra hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin, vətəndaşların və təşkilatların hüquq və mənafelərinin müdafiəsini təmin edir.

Prokurorluq orqanlarının nəzarəti. Prokurorluq orqanlarının fəaliyyətinin istiqamətlərindən biri Azərbaycan Respublikasında qanunla nəzərdə tutulmuş qaydada qanunların

eyni cür və dürüst tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş qaydada cinayət işləri başlayır və istintaq aparır. Məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

Qanunların icrasının nəzarət obyektlərinin qəbul etdikləri hüquqi aktların qanuniliyinin yoxlanması prokurorluq qanun pozuntuları haqqında ona daxil olmuş məlumatlar, ərizələr, şikayətlər əsasında həyata keçirilir.

İdarəetmə sahəsində qanunçuluğun təmin olunması məqsədi ilə prokurorluq orqanları öz işlərində müvafiq metodlardan istifadə edir. Bu metodlar aşağıdakılardır:

Nəzarət obyektləri tərəfindən qanunların icrası vəziyyətinin yoxlanılması, yoxlamalar zamanı aşkara çıxarılmış pozuntuların, bundan doğuran səbəblərin və şəraitin aradan qaldırılması üçün görülən tədbirlər arayışlarla yekunlaşdırılmalıdır. Nəzarət obyektlərinin qəbul etdiyi hüquqi aktların və vəzifəli şəxslərin hüquqi nəticələri doğuran hərəkətlərin yoxlanması.

Nümayəndəli hakimiyyət və icra hakimiyyəti orqanlarının iclaslarında prokurorun iştirakı.

Qanunçuluğun pozulması faktları haqqında prokurorluğa daxil olan, yaxud kütləvi informasiya vasitələrində dərc edilən məlumatların öyrənilib ümumiləşdirilməsi və bunların əsasında müvafiq tədbirlər görülməsi prokuror nəzarətində öz əksini tapır.

III. Şikayət vermə üsulu. Qanunçuluğu möhkəmləndirmək üçün dövlət idarəetməsində bu üsuldan geniş istifadə olunur. Bu sahədə bir neçə normativ hüquqi aktlar qəbul olunub. Həmin normativ hüquqi aktlar aşağıdakılardır:

- "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir[1].

Müraciətlərin növləri:

1. təklif;
2. ərizə;
3. şikayət[2].

Təklif – qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm, təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciətdir.

Ərizə – hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir.

Şikayət – pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir.

Vətəndaşlar təklifləri və ərizələri həmin məsələni bilavasitə həll etməli olan dövlət hakimiyyəti orqanlarına, idarələrə, təşkilatlara və ya vəzifəli şəxslərə verirlər.

Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Müraciəti baxılma müddəti aşağıdakı kimidir:

Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30

---

[1] Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinin 1-ci hissəsi.
[2] "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu.

iş günü müddətində baxılır.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciəti daxil olduğu gündən etibarən ən geci 15 gün ərzində baxılır. Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq baxılmalıdır.

Vətəndaşların müraciətlərinə baxılmasının 2 növü var:

- inzibati qayda;
- məhkəmə qaydası.

Şikayətin verilməsi qaydası:

Vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, idarələrə və təşkilatlara, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilər.

Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, tabelik qaydasında yuxarı orqan şikayətə 1 aydan gec olmayan müddətdə baxmalı, şikayətə baxılmasının nəticəsi barədə həmin orqanın rəhbərliyi vətəndaşa cavab verməlidir. Şikayət vətəndaşın yaşadığı yer üzrə və ya qərarlarından və ya hərəkətlərindən şikayət edilən orqanın və ya vəzifəli şəxsin olduğu yerin məhkəməsinə verilir. Hərbi qulluqçular hərbi vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətləri barəsində bu maddədə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət edə bilərlər.

Məhkəməyə şikayətlə müraciət edilməsi müddətləri aşağıdakı kimidir:

- hüquq və azadlıqlarının pozulmasının vətəndaşa məlum olduğu gündən bir ay keçənədək;
- şikayətin təmin edilməsi barədə yuxarı orqan və ya vəzifəli şəxs tərəfindən yazılı cavabın verildiyi gündən bir ay keçənədək;
- inzibati tənbehin verilməsi barədə qərardan həmin qərarın surətinin təqdim edildiyi və ya şəxsə elan edildiyi gündən 10 gün keçənədək.

Bu məsələlərlə bağlı məhkəmə qərar qəbul edir və onun icrası məcburidir. Məhkəmənin qərarı qüvvəyə mindiyi gündən ən geci 3 gün keçənədək qərarlarından və hərəkətlərindən şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə, habelə vətəndaşlara göndərilir. Məhkəmə qərarın alındığı gündən ən geci 1 ay keçənədək qərarlarından və hərəkətlərindən şikayət edilən orqanlar və ya vəzifəli şəxslər həmin qərarın icrası barədə məhkəməyə və vətəndaşa məlumat verməlidirlər.

Qərar icra edilmədiyi halda məhkəmə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

***Suala yekun olaraq qeyd edə bilərik ki,*** qanunçuluq və intizamın təmin edilməsinə təşkilati-hüquqi vasitələrin köməyi ilə nail olunur. Həmin vasitələr məcmu halda qanunçuluğu və intizamı təmin etmək üsullarını, habelə bu üsullar sistemini əhatə edir. Bu sistemə fəaliyyəti qanunçuluğun və intizamın təmin edilməsi ilə müxtəlif dərəcədə bağlı olan çoxsaylı dövlət orqanları daxildir.

Qanunçuluq və intizamın təmin edilməsi məsələləri ilə məşğul olan bütün orqanlar müvafiq hüquqi hakimiyyət səlahiyyətlərinə malikdir və onların fəaliyyətinə dövlət hüquqi xarakter verilir. Belə fəaliyyət qanunçuluğun və intizamın təmin edilməsi üsulu kimi başa düşülür. Bu fəaliyyət müxtəlif dövlət hakimiyyəti orqanları, habelə yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir.

**Sual 3.** DİO-nun (polisin) fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi üsulları

Daxili işlər orqanlarının fəaliyyəti dövlət idarəetməsinin digər sahələrindəki kimi qanunçuluq prinsipinə əsaslanmaqla realizə olunur. Daxili işlər orqanlarında qanunçuluq və intizam mühüm əhəmiyyət kəsb edir. Daxili işlər orqanlarının hər bir əməkdaşı Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutmalı.

Polis əməkdaşı polis sıralarına daxil olmaqdan öncə polis andını içir. Bu and Azərbaycan Respublikasının "Polis haqqında" Qanunun 29-cu maddəsində göstərilmişdir. Bu and ilə polis əməkdaşı qanunçuluğa ciddi riayət etməsinə və intizamlı olmağına and içir. Polis əməkdaşının gələcək fəaliyyətində bu iki məqam böyük əhəmiyyət kəsb edir.

Daxili işlər orqanlarının əməkdaşlarının intizamı haqqında bir neçə normativ hüquqi aktlar qəbul edilmişdir: "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə 29.06.2001-ci il tarixli Azərbaycan Respublikasının Qanunu, "Daxili işlər orqanlarının İntizam Nizamnaməsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası daxili işlər nazirinin 16.06.2009-cu il tarixli 330 nömrəli əmri.

Daxili işlər orqanlarında xidməti intizam - əməkdaşlar tərəfindən həvalə olunmuş vəzifələri nümunəvi yerinə yetirməkdən, Azərbaycan Respublikasının Konstitusiyasına, Qanunlarına, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarına, Nazirlər Kabinetinin qərar və sərəncamlarına, daxili normativ hüquqi aktlara, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəhbərlərinin birbaşa və bilavasitə rəislərin əmr və göstərişlərinə əməl etməkdən ibarətdir.

Daxili işlər orqanlarının intizama nail olmaq üçün əməkdaşların qanunçuluğa, İntizam Nizamnaməsinə, etik davranış qaydalarına ciddi riayət etmələri, polis andına sadiq olmaları təmin edilməlidir.

Hər bir əməkdaşa vəzifə borcuna məsuliyyətli münasibət, yüksək mənəvi etik, iradi və peşəkar iş keyfiyyətləri aşılanmalıdır. Rəhbər vəzifəli şəxslər tərəfindən tabelikdəkilərə tələbkarlıqla yanaşı diqqət və qayğı göstərməli, inandırma, həvəsləndirmə və məcburetmə tədbirləri uzlaşdırılmış şəkildə tətbiq edilməlidir.

Xidməti vəzifələrin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə daxili işlər orqanlarının əməkdaşları üçün aşağıdakı həvəsləndirmək növləri tətbiq edilə bilər:

- təşəkkür;
- pul mükafatı;
- qiymətli hədiyyə ilə mükafatlandırma;
- fəxri fərman ilə təltif edilmə;
- fəxri döş nişanı ilə təltif edilmə;
- vaxtından əvvəl növbəti xüsusi rütbənin verilməsi;
- xüsusi rütbənin vəzifə ştatından nəzərdə tutulduğundan bir pillə yuxarı verilməsi;
- təltif silahının verilməsi.

Xidməti intizam qaydalarını pozmağa görə, həmçinin daxili işlər orqanlarının əməkdaşı "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə intizam məsuliyyətinə cəlb olunur.

- məzəmmət;
- töhmət;
- şiddətli töhmət;
- xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;

- tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;
- xüsusi rütbənin bir pillə aşağı salınması;
- xidmətdən xaric edilmə.

Qanunvericinin mövqeyinə əsasən, polisin fəaliyyətində "Polis haqqında" qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində DİN, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirir.

## Nəticə

Mühzirənin nəticəsi olaraq qeyd edə bilərik ki, dövlət iqtisadi, siyasi, ideoloji, təşkilati, hüquqi vasitələrlə və müxtəlif metodlarla idarə olunur. Bunlar arasında cəmiyyətin, vətəndaşların normal fəaliyyətinin təmin olunması üçün mühüm rol oynayan qanunçuluq və intizam xüsusi yer tutur.

Müasir şəraitdə qanunçuluq və intizam olmadan cəmiyyət qarşısında duran bir sıra vacib vəzifələrini, uğurlu iqtisadi islahatların aparılması, bazar münasibətlərin qurulması və istehsalın inkişafı, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qurulmasını, siyasi sistemin və demokratik institutların effektiv fəaliyyəti, insan hüquq və azadlıqlarının realizə olunması və onların təminatlarının möhkəmləndirilməsi, eyni zamanda dövlət aparatının dəqiq fəaliyyəti, cinayətkarlıq və digər hüquqpozmalarla mübarizə aparılması, idarəetmə prosesinin təmin olunması, siyasi-hüquqi mədəniyyətin formalaşdırılması və şəxsiyyətin, eləcə də bütün cəmiyyətin hüquq düşüncəsinin inkişaf etdirilməsinin həyata keçirilməsi çətinliklə mümkün olar.

Sadalanan və digər vəzifələrin həyata keçirilməsi üçün təşkilatçılıq, qanunçuluq və intizam tələb olunur. Təbii ki, bunlar yalnız cəmiyyətin sıravi fərdlərinə deyil, eləcə də hakimiyyət strukturlarına, idarəetmə etikasına və bütövlükdə hakimiyyəta aid edilir.

Sonda onu da qeyd etmək lazımdır ki, dövlətdə qanunçuluğun və intizamın lazımi səviyyədə olması onun beynəlxalq nüfuzuna da müsbət təsir göstərir.